# ÇALDIRANA GEDƏN YOL

## *romandan səhifələr*



*Hüseynbala MİRƏLƏMOV*

*(Əvvəli ötən saylarımızda)*

Səfəvi xanədanının sütunları olan görkəmli sərkərdələr Hüseyn Lələ bəy, Sarı Pirə Ustaclı, Məhəmməd xan Ustaclı, Şərafəddin Əli Şirazlı, Seyid Sədrəddin, Nurəli Xəlifə, Durmuş xan Şamlı, Əbdülbaqi Yəzdi və qeyrilərinin iştirakı ilə Sultan Səlimin sonuncu məktubu da oxundu və belə bir yekdil qərar qəbul olundu ki, Şah İsmayıl istəsə də, istəməsə də Sultan Səlim tezliklə sərhədləri keçəcək, Səfəvi səltənətinin içərilərinə doğru irəliləyəcək. Çünki onun iddiaları təkcə ərazi istəkləri ilə bitmirdi. O, ümumiyyətlə Səfəvi səltənətinin getdikcə nüfuz qazanması, ikinci böyük Türk dövləti kimi Şərqin böyük bir hissəsinə sahib olmasına dözə bilmirdi. Bunu onun siyasəti də açıq-aşkar göstərirdi. Bunlar azmış kimi Sultan Səlim Səfəvilərlə dini təriqət fərqlərinə görə də barışmır, Səfəvilərə sonsuz kin bəsləyirdi. O, Səfəvilərin İmam Əliyə olan etiqadını Məhəmməd peyğəmbərin yolundan azmaq, başqa sözlə, İslama xəyanət hesab edirdi. Və bu kimi müxtəlif səbəbləri araya gətirən Sultan Səlim Şah İsmayıla və onun tərəfdarlarına nifrət bəsləyir. İmkan düşən kimi onlarla haqq-hesab çəkəcəyini qətiyyən gizlətmirdi. İndi Səfəvilərin qüdrətli sərkərdələri İsfahandan Təbrizə gəlib yığışmaqla Sultan Səlimin qarşısına necə çıxmaq məsələsini müzakirə edirdilər.

Təkliflər müxtəlif idi. Amma bir məsələ aydın idi ki, Sultan Səlimə Təbrizə qədər gəlməyinə imkan vermək olmazdı. Belə olan təqdirdə Şah İsmayıl öz sərkərdələrinə qısa vaxt ərzində qoşun toplamağı və toplanmış qoşuna hərbi baxış təşkil etməyi tapşırdı.

Onsuz da hadisələrin gedişi hər iki tərəfdən çevik hərəkət etməyi tələb edirdi. Şah İsmayılın qənaətinə görə, onlar tezliklə hərəkətə keçməli və Xoy ətrafına qədər hərəkət etməli idilər.

Kəskin istilər başlamışdı. Yayın qızmarında hərəkət çətin olsa da, Xan Məhəmməd Ustaclı və Hüseyn Lələ bəy görüş yerinin seçilməsi haqqında Şah İsmayılla ayrıca məsləhət görüşü keçirməyi qərara aldılar. Şah özü də hiss edirdi ki, Sultan Səlimlə qarşılaşma tərəflərdən birinin tamam məğlub edilməsi ilə başa çatar. Ən pisi də o idi ki, heç ikinci tərəf də bu döyüşdən salamat çıxa bilməyəcəkdi. Şah İsmayılın əsas ümid yeri Qızılbaşların əqidə bütövlüyü, döyüşü fədakarlıqla qarşılaması idi.

Ancaq başqa çətinliklər də vardı. Tezliklə məlum oldu ki, yayın ortasına qədər Səfəvilər qırx min döyüşçü toplaya bilər. Amma bir-birinin arxasınca xəbərlər gəlirdi ki, Sultan Səlim artıq yüz min nəfərlik bir ordu tədarükü görüb. Səfəvilərin təcrübəsində var idi ki, özlərindən ikiqat, bəzən üçqat artıq olan düşmənə qarşı döyüşmüş və qalib gəlmişdilər. Amma Osmanlı ordusu təcrübə baxımından kifayət qədər hazırlıqlı idi. Əsas da ordunun xeyli hissəsi Qərb ölkələri ilə savaşdan çıxmışdı. Avropa ölkələri ilə müəyyən əlaqələr sayəsində Osmanlılar topları idarə edən mütəxəssis qüvvələri də gətirdə bilmişdilər.

Bir sözlə, qüvvələr nisbəti kifayət qədər fərqli idi və bunu başa düşmək heç də çətin deyildi.

Yayın ortasına doğru Səfəvi qoşunları Xoy istiqamətində hərəkətə keçdi. Əvvəlcədən razılaşdırıldığı kimi, döyüş yeri üçün Maku yaxınlığındakı Çaldıran düzü nəzərdə tutulurdu.

Qoşun hələ Xoyda olarkən Şah İsmayıla xəbər verdilər ki, Osmanlı ordusundan bir nəfər qaçıb Səfəvilərə pənah gətirib və hökmdarla görüşmək istəyir.

Səfəvi hökmdarı belə bir şəxsin onunla nə üçün görüşdüyünün Səbəbini aramazdan çox onu danışdırıb Osmanlı ordusundakı vəziyyəti öyrənmək istəyi ilə yanına gətirilməsini əmr etdi. ...Və qonaq özünü hökmdara Şeyx Əhməd kimi təqdim etdi.

- Hörmətli qonağın bizi ziyarət etməkdə məqsədi nədir? - Şah soruşdu.

Şeyx Əhməd bir neçə dəfə əyilib ikiqat oldu, Şaha təzim elədi:

- Mən Osmanlı ərazilərindəki şiələrin nümayəndəsiyəm. Bizim orduda çoxlu adamlarımız var. Bu barədə hökmdara məlumat vermək istədim.

Şah zəndlə özünü Şeyx Əhməd kimi təqdim edən şəxsi süzdü. Onun nə qədər səmimi olub-olmadığını anlamaq istədi. Hər halda, Şeyx Əhməd də kifayət qədər hazırlıqlı idi və bilirdi ki, Şah onu asanlıqla qəbul etməyəcək. Amma inadla özünü Şaha doğma bir şəxs kimi təqdim etməkdə idi.

- Mürşidimizə başımız qurbandı, biz bilmək istəyirik ki, hökmdar nə vaxt hərəkətə keçəcək. Sultan Səlimlə harada, necə qarşılaşacaq?

Şeyx Əhməd sualını verdi və cavab gözlədi. Şah ona birdən-birə cavab vermədi, onu öldürücü nəzərlərlə süzdü və sonra dilləndi:

- Deməl, sən hər şeyi elə indi bilmək istəyirsən?

- Bəli, bəli, hökmdar, elə indi bilmək istəyirəm. Bizim Osmanlı ordusundakı qüvvələrimiz Sultan Səlimə qarşı üsyan edəcək. Ordudan ayrılacaq. Onda gərək biz Səfəvilərə qoşulmaq imkanı tapaq. Əgər vaxtında Səfəvilərə qoşula bilməsək, onda Sultan Səlim bizi son nəfəsimizə qədər qırıb-çatacaq.

Şeyx Əhmədin bu sözləri Şah üçün ağlabatan göründü. Çünki o, əvvəlcədən də eşitmişdi ki, Sultan Səlimin qoşununda Səfəvi ocağına rəğbəti olan şiəlik təriqətinə sadiq qüvvələr var. Sadəcə, Sultan Səlimin şiələrə qarşı qəddar münasibətinə görə öz əqidələrini gizləməkdədirlər. Belə olan təqdirdə Şah bəzi mətləbləri Şeyx Əhmədlə müzakirə etdi. Hələ o ordudakı şiə qüvvələrinə bir məktub da göndərdi. Çünki bunu Şeyx Əhmədin xahişi ilə yazdı. Çünki o, həmin məktubu Şahla görüşünün sübutu kimi şiələrə göstərəcəkdi.

Qoşunlar Çaldıran düzünə yaxınlaşmaqda ikən Şeyx Əhməd Qızılbaşlardan ayrıldı və özünü artıq hərəkətdə olan və Çaldıran düzünə yaxınlaşmaqda olan Osmanlı qoşunlarının qərargahına yetirdi. O, Sultan Səlimlə asanlıqla görüşə bildi. Çünki mühafizə adamlarına Qızılbaş qoşununun hərəkəti haqqında vacib xəbərlərə sahib olduğunu bildirməklə özünə yol açmışdı. O, Sultan Səlimin yanına varid olan kimi Şah İsmayılla görüşü haqqında ətraflı və əhatəli məlumat verdi. Hələ üstəlik Şahdan ənam aldığını bildirərək, Şahın şiələrə yazdığı məktubunu da Osmanlı hökmdarına təqdim etdi. Bundan sonra Qızılbaşların hərəkəti təxmini qoşunlarının tutduğu əraziləri və qoşun növləri haqqında öyrəndiklərinin hamısını danışdı.

Sultan Səlim bu məharətli casusun dediklərindən xüsusilə, bir məsələni razılıqla qarşıladı. İndi ona aydın idi ki, Şah İsmayıl onunla qarşılaşmağa gəlir və tezliklə iki böyük ordu üz-üzə gələcəkdir. Hələ üstəlik Sultan Səlim onu da bu adamın dilindən, danışdıqlarından anladı ki, Şah İsmayıl döyüş yeri kimi Çaldıran düzünü seçib. Sultan Səlim də bu casusa kifayət qədər xalatlar verdi və onu öz istəyinə görə Diyarbəkrin təhlükəsiz tərəflərinə yola saldı.

Avqust ayının 19-da qoşunlar Çaldıran düzü istiqamətində hərəkət edərkən axşam düşərgəsi salmış, yolüstü dayanmışdılar. Qəflətən aylı gecə qaranlığa büründü. Bəli, bu, Ay tutulması idi. Təbiət etibarilə mistik xurafatçı insan olan, həm də ölümdən miskincəsinə qorxan Sultan Səlim bu Ay tutulması hadisəsindən vahimələndi.

Mövlana Sarıgörəzin özünün razılığı olmasa da, Sultan Səlim onu da səfərə gətirmişdi. Və belə məqamlarda onun yeganə ümid yeri Mövlana Sarıgörəz idi. Yenə onu yanına çağırıb bu məsələdə Osmanlı qoşunları üçün bir qaranlıq olub-olmadığını öyrənmək istədi.

Mövlana Sarıgörəz Sultan Səlimi görəndə gözlərinə inanmadı. Büzüşüb oturmuşdu. Hiss olunurdu ki, Ay tutulması gecəsini çox ağır keçirib. Ən başlıcası, qorxu onun bütün varlığına sirayət edib. Birbaşa Ay tutulmasını özünün şəxsi uğursuzluğu kimi qəbul edib. İndiki vəziyyətdə bütün qoşunun hamısını qurban verib, təki öz canı sağ qalsın deyə qayıdıb İstanbula gedərdi. Amma vəziyyətdən baş çıxara bilməməyin ucbatından bir qərara da gələ bilmirdi.

Mövlana Sarıgörəz təzim edib yaxına gəldi.

- Hökmdarın sabahı xeyirliyə açılıb, bəs üzü niyə gülmür?

- Ötən gecə Ayın üzü gülmədi. Bəs onda hökmdarın üzü necə gülərdi?

- Xeyirliyədi, hökmdar, - Mövlana Sarıgörəz bir az da ruh yüksəkliyi, şadyanalıqla dedi.

Onun belə ruh yüksəkliyi ilə «xeyirliyədir» deməsi Sultana sanki təpər gətirdi, qırışığı açıldı. Sevincək yerindən qalxıb ətrafa göz gəzdirdi. Bütün qoşun əhli öz işində idi. Bir azdan yenə hərəkət başlayacaqdı. Qayıdıb Mövlana Sarıgörəzdən soruşdu:

- Sən buna əminsən? Nəyə görə «xeyirliyədir» deyirsən? - Hökmdar biliyinə, hər bir suala asanlıqla cavab tapacağına inandığı kimi, Mövlana Sarıgörəzin sözünün əsaslı olduğuna da həmişə əmin olmuşdu. O, belə çox çətinliklərə düşmüş və hər dəfə də Mövlana Sarıgörəzdən məsləhət almış və aldığı məsləhətlərdən faydalanmışdı.

İndi Mövlana Sarıgörəz yaxşı bilirdi ki, o, elə cavab verməlidir ki, verdiyi cavab Sultanı tam qane eləsin.

- Hökmdar, günəş Qızılbaşların rəmzidir. Ay nur, işıq deməkdir. Demək, Ayın tutulmağı Qızılbaşların bəxtinin qaranlığa düşməsinə işarədir. Bundan Osmanlı ordusuna xətər yoxdur. Sultan bir daha sevindi. İndi ona sanki əlavə güc gəlmişdi.

...Osmanlı ordusunun Çaldıran düzünə can atmaq istədiyi vaxtda Qızılbaş ordusu da özünü Çaldıran düzünə yetirib əlverişli mövqe tutmaq üçün tələsirdi.

Şah ordunun qarşısında öz atının üstündə gedirdi. Aradakı fasilələr vaxtı ayrı-ayrı sərkərdələrlə görüşür, qoşunun əhval-ruhiyyəsi, adamların ovqatı haqqında xəbər, məlumat alırdı.

İndi növbə Taclının idi. Taclı xanım da döyüş qabiliyyəti olan bir dəstə qadına başçılıq edirdi. Onların hamısı Qızılbaşların geyimini geyinmişdi. İlk nəzərdən ayırmaq mümkün deyildi ki, böyük bir dəstə qadınlardan təşkil olunub. Şah əvvəlcə qadınların döyüşə cəlb edilməsinə razılıq verməmişdi. Amma Taclı bəyim Çaldıran düzündə onu müşayiət edəcəyində israrlı olduğunu bildirmiş və inadla da öz istəyinə nail olmuşdu. O, qətiyyətlə tələb etmişdir ki, Şahın yanında olmaq haqqını heç kim ondan ala bilməz. Yalnız bundan sonra Şah razılıq vermiş və o da hərbi təlim görmüş döyüş bacarığı olan qadınlardan ibarət bir dəstə yaratmışdır.

*(Davamı var)*